# AMEA milli dövlətçiliyimizin xidmətində




**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında AMEA-nın 80 illik yubileyi münasibətilə Yeni Azərbaycan Partiyası ilə birgə toplantı keçirilib.**

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Prezident İlham Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" sərəncamının Azərbaycan elminə, aliminə, yeni elmi nəslə dövlət səviyyəsində verilən yüksək qiymətin və ehtiramın ifadəsi olduğunu bildirib. O, AMEA-nın taleyində ulu öndər Heydər Əliyevin elmi qurumun fəaliyyətini daim diqqət mərkəzində saxladığını vurğulayıb. AMEA-nın yubileyi ilə bağlı müxtəlif formatlarda tədbirlərin təşkil olunduğunu söyləyən akademik ötən 80 ildə milli elmin böyük yol keçdiyini, azərbaycançılıq ideologiyasına, milli kadr hazırlığına töhfə verdiyini, görkəmli alimlər nəsli yetişdirdiyini söyləyib.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, AMEA-nın fəaliyyətinin mühüm istiqamətlərindən biri milli dövlətçilik ideologiyasının elmi əsaslarının formalaşdırılması, azərbaycançılıq məfkurəsinin təbliği və cəmiyyətdə milli həmrəyliyin möhkəmləndirilməsidir. AMEA əməkdaşlarının YAP sıralarına daxil olması isə partiyanın keyfiyyət tərkibini daha da zənginləşdirməklə yanaşı, elmi fikrin ictimai proseslərdə daha fəal iştirakına şərait yaradır. Azərbaycan alimləri və ziyalıları intellektual və mənəvi potensialları ilə dövlətçiliyimizin inkişafına mühüm töhfə vermişlər.

Tahir Budaqov partiya sıralarına yeni qoşulan gəncləri ölkənin elmi-ictimai həyatında fəal iştirak etməyə, milli dəyərlərə və dövlətçiliyə sədaqət prinsiplərini daim uca tutmağa çağırıb.

Mərasimdə YAP sıralarına qəbul olunan AMEA əməkdaşlarına üzvlük vəsiqələri təqdim olunub.

***XQ***

Xalq qəzeti .- 2025.- 14 oktyabr (№220).- S.12.